# Antiinflyasiya tədbirləri hazırlayan işçi qrup işə başlayıb

Yanvarın 18-də Nazirlər Kabinetində Baş nazir Əli Əsədovun sədrliyi ilə keçirilmiş iclasda müvafiq qurumlara “Antiinflyasiya tədbirlərinin gücləndirilməsinə dair” Tədbirlər Planının hazırlanması tapşırılmışdı.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, artıq müvafiq qurumların nümayəndələrindən ibarət işçi qrup yaradılıb və ilk iclası keçirilib.

İşçi qrupun təqribən iki həftə ərzində tədbirlər planının ilkin layihəsini hökumətə təqdim edəcəyi gözlənilir.

Azərbaycan.- 2022.- 22 yanvar.- S.2.